# Onlar 700 bal toplayıblar

**II və III ixtisas qrupları üzrə daha 4 abituriyent ən yüksək nəticə əldə edib**

**Dövlət İmtahan Mərkəzinin ölkənin ali təhsil müəssisələrinə qəbul olmaq istəyən cari ilin məzunları üçün II və III ixtisas qrupları üzrə iyulun 23-də keçirdiyi imtahanlarda daha 4 nəfər abituriyent ən yüksək nəticə - 700 bal toplayıb. Onlardan 2-si II, 2-si isə III ixtisas qrupu üzrə imtahan verənlərdir. Gənclərimizi təbrik edir və gələcək təhsillərində daha böyük uğurlar arzulayırıq. Onları oxuculara təqdim edirik.**



**Elvin Manaf oğlu İsayev**

III ixtisas qrupu üzrə imtahanlarda maksimum nəticə göstərən Elvin Bakı şəhər 220 nömrəli məktəb-liseyin məzunudur. O, məktəbdəki təhsili ilə yanaşı 3 il (9-10-11-ci siniflərdə) "Hədəf" kurslarında hazırlaşıb. Elvin yüksək nəticəsində həm məktəb-liseydə, həm də kursda aldığı biliklərin rolu olduğunu deyir.

220 nömrəli məktəb-liseyin direktoru Nərminə Ağayeva bizimlə söhbətində Elvinin yaxşı oxuduğunu, olimpiada və müsabiqələrdə daim iştirak etdiyini, III ixtisas qrupuna hazırlaşmasına baxmayaraq riyaziyyatı I ixtisas qrupu səviyyəsində bildiyini, IX sinfi fərqlənmə şəhadətnaməsi ilə bitirdiyini söylədi. O, həm də 2014-cü ildə Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin keçirdiyi VII intellekt olimpiadasında I yeri tutub. Elvin həm də yaxşı idmançıdır. Uşaqlıqdan karate ilə məşğuldur. Karate-Do üzrə qara kəmər sahibidir.

Direktor Elvindən bu nəticəni gözlədiklərini dedi. Çünki son sınaqdan da 700 bal toplayıbmış.

Elvin İsayev gələcəkdə hüquqşünas olmaq istəyir.



**Şahbaba Şahbala oğlu Məmmədov**

Təhsil Nazirliyinin birbaşa tabeliyindəki İ.Hacıyev adına "Tərəqqi" texniki-humanitar liseyinin məzunudur. Liseyin direktor müavini Sədaqət Hacıyeva deyir ki, Şahbaba I sinifdən bizim məktəbdə oxuyub. Həmişə bütün fənlər üzrə dərslərə eyni səviyyədə hazırlaşıb və yüksək nəticələri ilə seçilib. Humanitar fənlərə, xüsusən də tarixə xüsusi həvəsi olub. Ötən il respublika fənn olimpiadalarının rayon (şəhər) mərhələsində Bakı üzrə tarixdən II yeri tutub. Repetitor yanına getməyib. Liseydə müəllimlər, evdə isə anası qəbul imtahanlarına hazırlaşmasına kömək ediblər. İntellekt səviyyəsi yüksək, hazırlıqlı, məsuliyyətli, eyni zamanda tərbiyəli və çox təvazökar gəncdir. Sədaqət müəllim onu da dedi ki, mən şəxsən Şahbabadan bu nəticəni gözləyirdim və zarafatla deyirdim ki, 700 bal toplamasan, səninlə danışmayacağam.



**Fərid Nazim oğlu Hüseynov**

II ixtisas qrupunda imtahan verərək təqdim olunmuş bütün test tapşırıqlarını cavablandıran Fərid Türkiyə Diyanət Vəqfi Bakı Türk Liseyinin məzunudur. O, liseyin tarixində indiyədək ən yüksək göstəriciyə imza atmış 14-cü məzundur. "Müəllimlərim və valideynlərim məndən bu nəticəni gözləyirdilər. Özümdə də 700 bal toplayacağıma güclü inam var idi. Bu inamı və gücü mənə verən çox çalışmağım idi", - deyə Fərid söyləyir. O, yüksək nəticəsində hamıdan çox anasının payı olması qənaətindədir və ona borclu olduğunu düşünür: "700 bal toplamağımda ən çox anam əziyyət çəkib. O, hər səhər yuxudan məndən qabaq durub yeməyimi, çayımı hazırlayırdı, mənə həvəs və mənəvi güc verirdi".

Qəbul imtahanlarına ancaq öz liseylərində hazırlaşdığını, əlavə repetitor yanına getmədiyini deyən Fərid müəllimlərinə təşəkkür edir. Deyir ki, onların məndən 700 bal gözləməsi məni daha məsuliyyətli olmağa sövq edirdi. "Biznesin idarə edilməsi" ixtisasını seçməyi düşünən Fərid rekord bal toplamaq üçün abituriyentlərə məqsədli şəkildə çalışmağı, bütün çətinliklərə baxmayaraq hədəflərindən yayınmamağı tövsiyə edir.



**Təbriz Nazim oğlu Qasımov**

Kürdəmir şəhər 2 nömrəli məktəb-liseyin məzunudur. Ən yüksək nəticəni III ixtisas qrupu üzrə imtahanlardan qazanmış Təbriz KİV-ə verdiyi açıqlamalarda 700 bal toplayacağını gözləmədiyini deyib. "Bu nəticəni əldə etmək üçün iki il gecə-gündüz çalışmışam. İmtahanlara hazırlaşdığım dövrdə televizor və sosial şəbəkələrdən uzaq durmuşam. Müəllimlərim mənə inanırdılar. Onlara təşəkkürümü bildirirəm. Bu nəticələri müəllimlərimin və valideynlərimin dəstəyi hesabına əldə etmişəm", - deyə o bildirib.

Sənədlərini hansı ali təhsil müəssisəsinə verəcəyini dəqiqləşdirməyən Təbriz bu barədə qərarını ixtisas seçimi zamanı verəcək.

**Hazırladı: Yusif ƏLİYEV,** *"Azərbaycan müəllimi"*